2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İradə Hacıyevanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 sentyabr 2015-ci il tarixli, 14 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 26 sentyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü İradə Hacıyeva 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Ümid Partiyasının səlahiyyətli nümayəndəsi Ağa-zadə İqbal Fehruz oğlu 81 saylı Beyləqan seçki dairəsi üzrə namizədliyi həmin partiya tərəfindən irəli sürülmüş İsayev Anar Rafiq oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarını mübahisələndirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə namizədin pozulmuş hüquqlarının bərpa olunması ilə bağlı 2015-ci il sentyabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq tərtib edilərək müəyyən edilmiş müddətdə verildiyindən müvafiq rəy verilməsi üçün ekspert qrupunun üzvü tərəfimdən icraata qəbul edilmişdir.

Səlahiyyətli nümayəndə İ.F.Ağa-zadə müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə A.R.İsayevin namizdliyi Ümid Partiyası tərəfindən 81 saylı Beyləqan seçki dairəsi üzrə irəli sürülmüş, həmin dairənin ərazisində seçicilərin imzası toplanılaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədlər dairə seçki komissiyasına təqdim edilmiş, lakin dairə seçki komissiyası müvafiq qərarı ilə əsassız olaraq onu namizəd kimi qeydə alınmasından imtina etmişdir.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş A.R.İsayevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, namizədin qeydə alınması üçün etibarlı seçici imzalarının sayı yetərli olmamışdır.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 27 sentyabr 2015-ci il tarixli protokol və rəylərdən görünür ki, A.R.İsayevin namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imza vərəqələrində olan seçici imzaları Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmışdır. Belə ki, namizəd tərəfindən toplanılmış seçici imzalarından 483-ü etibarlı hesab edildiyindən o, namizəd kimi qeydə alına bilər.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən

namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Göstərilənlərə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, 81 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının A.R.İsayevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 24 sentyabr 2015-ci il tarixli 12/29 saylı qərarı ləğv edilməli və o, həmin seçki dairəsindən namizəd kimi qeydə alınmalıdır.

Yuxarıda göstərilənləri və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. Ümid Partiyasının səlahiyyətli nümayəndəsi Ağa-zadə İqbal Fehruz oğlunun 26 sentyabr 2015-ci il tarixli 14 saylı müraciəti təmin edilsin, 81 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının 24 sentyabr 2015-ci il tarixli 12/29 saylı qərarı ləğv edilsin.

2. 81 saylı Beyləqan seçki dairəsi üzrə namizədliyi Ümid Partiyası tərəfindən irəli sürülmüş İsayev Anar Rafiq oğlu həmin seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınsın.

3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İradə Hacıyeva